# Xocalı soyqırımı - qan yaddaşımız!

Azərbaycan xalqı tarixin hər üzündə soyqırım və talanlara məruz qalıb. Bunu tarixi faktlar sübut edir. Tarixə nəzər salırıq 1813-1828-ci illər ərzində doğma vətənimizi parçalamaq azmış kimi Livanda, Suriyada, İranda və s. ərazilərdə ağır, köçəri həyat tərzi yaşayan ermənilər mərhələli şəkildə Azərbaycan torpaqlarına köçürüldü. Böyük planın icrası illər ərzində ağır-acı nəticələrini göstərməyə başladı və XX əsrin insanlığa qarşı ən amansız faciəsi olan Xocalı soyqırımını yaşadıq. Xocalı qətliamının misli görünməyən amansızlıqları, analoqu olmayan vandalizmi, insanlığa qarşı ən qəddar işgəncə və zülmü belə qara səhifələrə sığmadı, nəhəng qara kitablara köçürüldü. Bəşər belə amansızlığı heç bir zaman görməmişdir. Bununla da ermənilər əsrlərlə gizli saxladıqları xislətlərini, əməllərini 1992-ci il 26 fevral tarixində təsdiqlədi, bütün dünyaya bəyan etdilər. Erməni xisləti, erməni amansızlığı Xocalı faciəsi ilə möhürləndi. Qoca, cavan, körpə hər kəs qəddarcasına, xüsusu amansızlıqla öldürüldü. Xocalının sinəsinə dağ çəkildi, talan oldu, viran qaldı, tarixinin səhifələrinə ləkələr düşdü. O gecə 63 uşaq, 106 qadın, 70 qoca qətlə yetirildi, 200 nəfər isə xüsusi qəddarlıqla, amansızlıqla, işgəncələrlə öldürüldü,1275 nəfər əsir, 100 nəfərdən çoxu əlil oldu, 150 nəfər itgin düşdü, anaların ah-naləsi ərşə qalxdı, görünməmiş müsibətlər yaşandı. XX əsrdə törətdikləri Xocalı faciəsi ermənilərin bütün daxili aləmini, milli xüsusiyyətlərini dünyaya bəyan etdi. Bu hərəkətləri ilə tarixdə baş vermiş ən ağır faciələri, dəhşətləri kölgədə qoydu. Onların törətdikləri vəhşilikləri heç nə ilə müqayisə etmək mümkün deyil. Xocalı faciəsi təsadüfi hadisə deyil. Xocalı faciəsini törətməklə ermənilər xalqımızı qorxutmaq, mübarizə əzmini qırmaq, tarixi torpaqlarımızın bir qisminin itirilməsi ilə barışmağa məcbur etmək istəyirdilər. Lakin illərin sınağından alnı açıq, üzü ağ çıxan xalqımızın başına gələn müsibətlər bizləri daha da sıx birləşdirdi.

"Bu soyqırımı, eyni zamanda, bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir" - deyən Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü il fevralın 24-də Milli Məclis "Xocalı soyqırımı günü haqqında" qərar qəbul etdi. Ulu Öndər Heydər Əliyev Azərbaycanın bütün faciələrinə siyasi qiymət verilməsi və dünyaya tanıdılması istiqamətində ölçüyəgəlməz işlər gördü. 25 fevral 1997-ci il tarixli Sərəncamı ilə Xocalı soyqırımı qurbanlarının xatirəsini yad etmək məqsədi ilə hər il fevral ayının 26-sı saat 1700-da Azərbaycan Respublikası ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq sükut dəqiqəsi elan edilmişdir.

27 sentyabr tarixində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuz 44 günün içərisində bütün başımıza gətirilən faciələrin qisasını aldılar. Azərbaycan ordusunun gücü, qüdrəti dünyaya səs saldı. Azərbaycan Ordusu 30 il işğal altında qalan torpaqlarımızı azad etməklə yeni reallıq yaratdı, "dəmir yumruq" qalib gəldi. Xocalı şəhəri 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda keçirdiyi lokal xarakterli antiterror əməliyyatı nəticəsində separatçılardan təmizləndi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2023-cü il oktyabrın 15-də Xocalı şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıb; İgid oğullarımız Xocalıda, bir sözlə doğma vətən torpaqlarımızda tökülən nahaq qanların hər damlasının haqqını aldı. İndi bir xalq olaraq birlikdə Xocalı faciəsini təkcə 26 fevral tarixində deyil hər dəqiqə, hər zaman xatırlayaq, qan yaddaşımıza yazaq. Çünki bu böyük, tarixi keçmişə malik bir xalqın faciəsi, fəryadıdır. Əlbəttə bu yaddaşlara əbədi həkk olmuş qanlı tariximizdir. Bu gün də qürurla deyə bilirik ki, Xocalı qisası aldıq.

Bu gün Xocalıda həyat qaynayır, şəhər və kəndlərdə məskunlaşma davam edir, yenidən dirçəlir, müasir infrastruktur yaradılır, yollar salınır, yaşayış binaları, sosial obyektlər tikilir.

Şəhər daha da gözəlləşir, inkişaf edir, yeni görkəm alır, həyat yenidən canlanır. Xocalının dirçəlişi Azərbaycan dövlətinin gücünün, xalqın iradəsinin və tarixi ədalətin təcəssümüdür. Bu torpaqlara qayıdan hər bir sakin ilk olaraq Müzəffər Azərbaycan Ordusunun gücünü, qəhrəman oğullarının rəşadətini daim mənən, rühən arxasında bir dağ kimi hiss edir. Bu gün Xocalıya qayıdış Azərbaycan dövləti tərəfindən həyata keçirilən genişmiqyaslı "Böyük Qayıdış" proqramının əsas komponentlərindən biridir. Bu qayıdış tarixi ədalətin bərpası, sosial-iqtisadi dirçəliş və milli yaddaşın yenidən oyanışı üçün xüsusi əhəmiyyət kəsb edir. 2026-cı il 19 yanvar tarixinə qədər Xocalı şəhəri və kəndlərinə cəmi 881 ailə, 3.602 nəfər köçürülüb.

20 iyul 2023-cü il tarixdən Prezident İlham Əliyevin işğaldan azad edilmiş Çanaqçı və Sığnaq kəndləri ilə tanışlıq səfərləri olmuş, Xocalı rayonunun Əsgəran qəsəbəsində Azərbaycan Respublikasının Dövlət Bayrağı ucaldılıb, Əsgəran qalasına və əraziyə baxış keçirilib. Bu günkü gündə Xocalı faciəsi həm böyük ağrı, həm də milli birliyimizin, mübarizə ruhumuzun simvoludur. Xocalını unutmaq yaşadığımız tarixin üzərindən qara xətt çəkməyimiz ola bilər. Tarixdən dərs çıxararaq, şəhidlərimizin xatirəsini daim əziz tutmaq, həqiqətləri dünyaya çatdırmaq hər birimizin borcudur. Xocalı yaşayır, Xocalı dirçəlir və Azərbaycan xalqının yaddaşında əbədi yaşayacaqdır. Tarixdən dərs çıxarmalıyıq, şəhidlərimizin xatirəsini daim əziz tutmalı, unutmamalı,həqiqətləri dünyaya çatdırmağı özümüzə vəzifə borcu bilməliyik. Qalib Azərbaycan ordusunun gücü ilə Xocalı qayıtdı, yaşayır, Xocalı dirçəlir və Azərbaycan xalqının yaddaşında əbədi yaşayacaqdır.

**İlhamə SEYIDOVA,**
**"Qəbələ səsi"nin ştatdankənar müxbiri.**

# Əsrin faciəsi

Xocalı soyqırımı təkcə emosional yaddaş deyil, dəqiq faktlarla təsdiqlənmiş hüquqi reallıqdır.

Ulu Öndər Heydər Əliyevin dediyi kimi "Bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində bir vəhşilik aktıdır. Bu soyqırımı, eyni zamanda, bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir." Cənab Prezident İlham Əliyev isə demişdir ki, "Biz Xocalısız ərazi bütövlüyümüzün, suverenliyimizin tam bərpa olunduğunu hesab edə bilməzdik. Biz tarixi ədaləti bərpa etmişik. Biz günahsız Xocalı qurbanlarının qisasını döyüş meydanında aldıq."

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Azərbaycan tarixinin deyil, bəşər vicdanının ən qara səhifələrindən biri yazıldı. Ermənistan silahlı qüvvələri beynəlxalq hüququn bütün norma və prinsiplərini kobud şəkildə pozaraq, keçmiş sovet ordusunun Xankəndidə yerləşən 366-cı motoatıcı alayının birbaşa iştirakı ilə Xocalı şəhərinə hücum etdi. Bu hücumun hərbi deyil, etnik-milli zəmində məqsədli məhvetmə əməliyyatı olduğu sonrakı faktlar və nəticələrlə tam sübuta yetirildi. Xocalı təkcə strateji mövqeyinə görə deyil, həm də mülki əhalinin sıx yaşadığı yaşayış məntəqəsi olduğu üçün hədəfə çevrilmişdi. Hücum zamanı şəhəri tərk etməyə çalışan dinc əhali əvvəlcədən qurulmuş pusqularda Naxçıvanlı və Pircamal kəndləri istiqamətində amansızcasına qətlə yetirildi, əsir götürüldü və işgəncələrə məruz qaldı. Qadınlar, uşaqlar, qocalar, insanlıq anlayışı həmin gecə Xocalıda güllələndi. Xocalı soyqırımı təkcə emosional yaddaş deyil, dəqiq faktlarla təsdiqlənmiş hüquqi reallıqdır. Rəsmi məlumatlara görə 613 nəfər qətlə yetirildi, onlardan 63-ü uşaq, 106-sı qadın, 70-i ahıl idi. 8 ailə tamamilə məhv edildi. 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirdi. 56 nəfər xüsusi qəddarlıqla - diri-diri yandırılaraq, baş dərisi soyularaq, hamilə qadınlar süngülərlə qətlə yetirilərək öldürüldü. 1275 nəfər əsir götürüldü, 150 nəfərin taleyi bu günədək naməlumdur.




**(Ardı 8-ci səhifədə).**

# İldönüm qeyd edilmişdir



Qəbələdə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yaradılması münasibəti ilə Qəbələ Rayon İcra Hakimiyyətinin, rayon hüquq mühafizə orqanlarının, idarə müəssisə və təşkilatların nümayəndələri, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qəbələ Rayon Şöbəsinin şəxsi heyəti Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət etmiş, önünə gül dəstələri düzərək dahi şəxsiyyətin xatirəsinə öz ehtiramlarını bildirmişlər.

# Xocalı soyqırımının 34-cü ildönümü tədbiri keçirilib

Xocalı faciəsinin 34-cü ildönümü ilə əlaqədar Qəbələ Mədəniyyət Mərkəzində keçirilən tədbirdə öncə Xocalı soyqırımına və Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan ordusunun qazandığı Zəfərə həsr olunmuş rəsm sərgisinə baxış keçirilmişdir. Ümummilli Lider Heydər Əliyevin, Azərbaycanın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhadətə yüksələn şəhidlərin və Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayan tədbirdə çıxış edənlər ölkə başçısının rəhbərliyi ilə azad olunmuş torpaqlarda, eləcə də qan donduran faciənin yaşandığı Xocalıda bu gün abadlıq – quruculuq işlərinin aparıldığını, yeni sənaye və turizm obyektlərinin istifadəyə verildiyini, yurd-yuvasından didərgin düşmüş insanlarımızın öz doğma torpaqlarına qayıtdıqlarını qeyd etmişlər.



Məktəblilərin ifasında Zəfərə həsr olunmuş şeir kompozisiyası tamaşaçılar tərəfindən maraqla qarşılanmışdır. Sonda Xocalı faciəsinin 34-cü ildönümünə həsr olunmuş "Zəfərə açılan pəncərə" adlı film nümayiş olunmuşdur.

# Baharın gəlişi



Su çərşənbəsinə Yalançı çərşənbə, Əzəl çərşənbə, Külə çərşənbə, Kül çərşənbə, Su çərşənbəsi, Sular Novruzu da deyirlər. Su çərşənbəsində su və su mənbələri təzələnir, arxlar qaydaya salınır, su hövzələrində abadlıq işləri görülür, su ilə bağlı müxtəlif şənliklər keçirilir. Su çərşənbəsi suya tapınma inamı ilə bağlıdır. Hələ gün doğmamışdan hamı su üstünə gedir, əl-üzünü yuyur, bir-birinin üzərinə su çiləyir, su üstündən atlanır, yaralıların yarasına su çiləyirlər. Xalqın inamına görə Su çərşənbəsi günü "təzə su"dan keçənlər, azarını, bezarını ona verənlər il boyu xəstəlikdən uzaq olarlar. Həmin gün su üstündə müxtəlif mərasimlər keçirilir. Su çərşənbəsi ilə əlaqədar çoxlu sayda inanclar, fallar, türkəçarələr, bayatılar, əfsanələr və rəvayətlər var.

Bu ilin ilk Novruz çərşənbəsi Su çərşənbəsi fevralın 24-nə təsadüf etdi.

Od çərşənbəsi martın 3-ü, Yel isə 10-u qeyd ediləcək. Torpaq (İlaxır) çərşənbəsi 17 martda olacaq. Novruz bayramı günləri isə 20-24 mart tarixlərini əhatə edəcək.

**İlahə EYVAZLI.**